# CƏBRAYILOV MİKAYIL ƏHMƏDİYYƏ OĞLU



Mikayıl Əhmədiyyə oğlu Cəbrayılov 1952-ci ilin aprel ayının 27-də Şəki rayonunun Oxud kəndində - Fransa partizan hərəkatının əfsanəvi döyüşçüsü Əhmədiyyə Cəbrayılovun ailəsində anadan olub. O, səkkizinci sinifə qədər doğulduğu kənddə oxuyub, sonra isə təhsilini Şəki şəhər 5 saylı fəhlə-gənclər məktəbində davam etdirib. 1971-ci ildə M.Cəbrayılov Şəki şəhər Daxili İşlər Şöbəsində milis nəfəri vəzifəsinə qəbul edilib. 1976-cı ildə Milis Məktəbinə göndərilib. 1978-ci ildə məktəbi müvəffəqiyyətlə bitirən Mikayıl leytenant rütbəsi alıb və sahə müvəkkili vəzifəsinə təyin edilib. 1990-cı il dekabrın 12-də baş leytenant Mikayıl Cəbrayılov dörd nəfər polis əməkdaşı ilə Qarabağa ezam olunur. Onlar Xocalı rayonu, Cəmilli kəndinin müdafiəsində iştirak etməli idilər. Bu dəstəyə Mikayıl başçılıq edirdi. Mikayıl dekabrın 15-də mühasirədə qalmış Cəmilli kəndinin əhalisi üçün ayrılmış 4 ton taxılı gətirmək üçün Kosalar kəndinə yola düşür. Onunla birlikdə 15 nəfər də gedirdi. Cəmilli-Kosalar arasında ermənilər qəflətən hücuma keçir. Mikayıl Cəbrayılov da çiynindən yara alır. O, maşından yerə atılıb, kənd sakinlərinin və yoldaşlarının həyatını xilas etmək üçün quldurlarla ölüm-dirim savaşına girir. O, yoldaşlarını xilas edə bilsə də, özünü xilas edə bilmədi. Atılan güllələrdən biri onun sinəsinə tuşlandı. M.Cəbrayılov Vətən, Xalq yolunda qəhrəmancasına həlak oldu. Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı Fərmanı ilə Cəbrayılov Mikayıl Əhmədiyyə oğluna (ölümündən sonra) "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Şəki şəhərində M.Cəbrayılovun adına küçə var. Şəhid olduğu kənd Qəhrəmanın adını daşıyır.